

Süleyman ƏLİSA

## *İrəli, Azərbaycan*

Alnı açıq, üzü ağ
Yola saldın illəri.
Nurlu sabahlarınla
Sevindirdin elləri.
Gedirsən gələcəyə
Sazlı, sözlü, nəğməli.
İrəli, Azərbaycan,
Azərbaycan, irəli!

Başını uca edib
Qızların, oğulların.
Ümidləri puç olub
Yadların, yağıların.
Başlayıb daha gözəl
Daha xoşbəxt çağların.
İrəli, Azərbaycan,
Azərbaycan, irəli!

Nələrə qadir deyil
Nələrə insan əli.
Sən qəhrəmanlar yurdu
Sən ölkələr gözəli.
Ay gözümün işığı
Ay eşqimin əzəli.
İrəli, Azərbaycan,
Azərbaycan, irəli!

Gücünü, qüdrətini
Bilir bütün el-oba.
Zəfərlərin mübarək
Hünərinə mərhəba.
Can qurban bu torpağa
Can qurban Qarabağa.
İrəli, Azərbaycan,
Azərbaycan, irəli!

## *Rəcəb Tayyib Ərdoğan*

*Türk və İslam dünyasını birliyə səsləyən*
*Rəcəb Tayyib Ərdoğana*

İllərin sınağından
Uğurla çıxa bildi.
Günəştək işıq saçdı
Şimşəktək çaxa bildi.
Arzu, istəyi birdir,
Fikri, məqsədi birdir.
Haqq, ədalət uğrunda
Can qoyur neçə ildi
Rəcəb Tayyib Ərdoğan!

Qəlbində coşub daşır
Vətən, millət sevgisi.
Təmkinlidir, qorxmazdır
İllah ağlı, zəkası.
Ədəb, ərkan, mərifət
İnsanlıqdı davası.
Azadlıq aşiqidir,
Hürriyyət pərvanəsi
Rəcəb Tayyib Ərdoğan!

Dünya yaman qarışıb
Od tutub yanır hər yan.
Adamlar qaçaq düşüb
Ölkələr qalıb viran.
Danışırlar dünəndən,
Danışırlar bu gündən
Danışırlar sabahdan
Ancaq hamısı yalan...
Sözün düzünü deyən
Bir şəxs var, alicənab
İgid, məğrur, qəhrəman
Rəcəb Tayyib Ərdoğan!

## *Yaman darıxmışam*

*Milli Qəhrəman Elşad Əhədovun*
*büstü önündə*

Xoş gördük, Elşad, nə yaxşı gəldin,
Yaman darıxmışdıq, səninçün yaman.
Yaxın gəl, utanma, bir danış, bir din
Yaman darıxmışdıq, səninçün yaman.

Sən uzun yolları keçib gəlibsən
Bağlı qapıları açıb gəlibsən.
Yenidən kəndinə köçüb gəlibsən
Yaman darıxmışdıq, səninçün yaman.

Daşlı, kəsəklidir bu ömür yolu,
Güllü, çiçəklidir bu ömür yolu.
Ay mənim yurdumun qəhrəman oğlu
Yaman darıxmışdıq, səninçün yaman.

Umunu, küsünü atıb bir yana
Gileyi, güzarı atıb bir yana...
Dönübsən nağıla, şeirə, dastana
Yaman darıxmışdıq, səninçün yaman.

Bilirik özünü öyən deyilsən,
Düşmənə başını əyən deyilsən.
Həmin Elşadsan, bu sən deyilsən?
Yaman darıxmışdıq, səninçün yaman

## *Çanaqqala savaşı*

Bu bir qanlı müsibət
Bu bir fitnə, fəsaddı.
Türkə qarşı soyqırım,
Türkə qarşı qisasdı...
Ancaq neçə zəfərə,
Qələbəyə yol açdı
Çanaqqala savaşı...

Düşmən öz əlləriylə
Özünə qəbir qazdı.
Bu döyüşü, bu cəngi
Hər kəs xeyirə yozdu...
Türk əsgəri qanıyla
Yeni bir tarix yazdı
Çanaqqala savaşı...

Başladı yeni bir gün
Yeni bir eşq sevdası.
Bürüdü yeri, göyü
"Allahu-əkbər" sədası.
Könülləri coşdurdu
Türk ruhu, türk yaddaşı
Çanaqqala savaşı...

Nağıla, əfsanəyə
Seirə, dastana döndü.
Qazilər uyuduğu
Ülvi məkana döndü.
Bir əsrin yaxasını
Vurubdur yerə indi
Çanaqqala savaşı...

Qanlı, qadalı illər
Ötdü, arxada qaldı.
Haqq öz yerini tutdu
Ədalət zəfər çaldı.
Bütün türk dünyasının
Qürur mənbəyi oldu.
Çanaqqala savaşı...